

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Yaddaşın işığında

## Ömrü nurlandıran söz

**Hər dəfə sözə üz tutanda, sözə biyət edəndə özümdən asılı olmadan işıq da gəlir düşür yadıma, nuru da xatırlayıram və gözlərim çevrəmdə işıq axtarır və tapır da. Çünki mənim inancıma görə söz həm də işığın güzgüdə görünən sifətidi və o işıq özü ilə birlikdə bizə çatdırdığı, bizə hopdurduğu sözün qatlarını da dərk etməyə, anlamağa vəsilə olur. Və beləcə sözlə işığın harmoniyasında səs gəlib çatır bizə. O səs işıqlı sözü gətirir. Əl-ələ tutub gələn sevgililər kimi - nazlana-nazlana, deyib gülə-gülə... Baxırıq, görürük, eşidirik, dinləyirik və bir də görürük ki, o söz bizim öz ürəyimizdən, öz ruhumuzdan qidalanır. Çünki halal sözdü, dürüst sözdü və həm də gün işığıdı, Tanrı zərrəsidi...**

Bəli, mənə görə həcmindən, ölçüsündən və kimin yazıb və deməsindən asılı olmayaraq, söz həqiqətən işığın özüdü, Tanrının zərrəsidi. Ona görə də sözün qarşısında diz də çökürəm, sözün başına fırlanıram da, sözdən bəhrələnirəm də, sözlə yaşayıram da. Çünki söz həm də yaşadır, min illiklərdən aşıb gəlir və növbəti min illiklərə doğru gedir, özü də yaşada-yaşada. Həsənoğlunun sözü kimi, Nəsiminin sözü kimi, Nizaminin sözü kimi, Füzulinin sözü kimi, Mirzə Fətəlinin, Mirzə Ələkbərin, Seyid Əzimin, Xurşidbanunun, Haqverdiyevin, Cavidin, Müşfiqin, Səmədin, Cəlilin, Üzeyirin, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin və daha kimlərin timsalında yaşayır söz. Mən bu sıranı kifayət qədər imzalarla böyüdə bilərdim. Amma indiki anda məqsədim, məramım, ömrümüzün bir parçası olan, həyatımızın ifadəçisi kimi, bizimlə yanaşı addımlayan və bəzən bizi bizdən öncə təqdim edən sözdən danışmaq istəyirəm. O sözdən ki, onu hamı öz sözü kimi deyir, öz sözü kimi yazır. Əslində isə ölçü də, qəlib də, hətta hərflər də eynidi, amma düzülüş, sıra, yerində demək, yazmaq fərqlidi. Bax, "Ömrün yaddaşı"nda olduğu kimi.

Hər bir sözün sonunda imza gəlir. Bəzən imza önə də keçə bilir, amma mahiyyət dəyişmir. Çünki əsas onurğa sütunu, şah damar sözdü və ona söykənib bir dayaq nöqtəsi hesab edib bütün dünyanı sözün başına fırlatmaq olur. Axı biz sözü Tanrı zərrəsi bildiyimiz üçün ona üz tututuq, ondan söz alırıq, ondan söz umuruq və o da bizim istedadımıza, qabiliyyətimizə, ən vacibi isə adamlığımıza baxıb bizə söz payı verir. Yaxşı ki, o payın içərisində söz adamının Adam sözü həmişə fərqlənir. Mən də Adam sözünə güvənən, inanan birisi kimi vərəqlədiyim "Ömrün yaddaşı" kitabında bu misraları oxuyuram:

*Saxta sevgiləri payız gülütək,*
*Min bəslə, əmək ver, barsız olacaq.*
*Dil də torpaq kimi Vətən sayılır,*
*Sərhədi pozulsa, ruhu solacaq.*

*İlahi gövhərdi söz həqiqəti,*
*Səndən ərməğandı, qorunsun gərək,*
*Yer üzü qurd yeyən alma kimidi,*
*Xəfif külək qopsa, yerə düşəcək.*

Bəli, sözün həqiqi dəqiq mənası elə bu şeirin misrasında xatırlandığı kimi, həm də gövhərdi, ləldi. Ondan ən kübar mərtəbədə də, ən adi bir həyat səhnəsində də, yəni aşağı zümrənin içərisində də hörmət, sayqı qazanmaq, diqqət çəkmək mümkündür. Necə deyərlər, ağızdan tökülən dür anlayan yanında mütləq öz əyarını saxlayır. Ona görə də sözün işığı düşən ünvanlara sayqı ilə, ürəklə getmək bir ruh dincliyi gətirir adama. Bilirsən ki, bu havada, bu mühitdə nə var, kim var və yaxud nə yoxdu, kim yoxdu:

*Zamanmı, məkanmı - itib içində,*
*Gözə yad görünən doğmalar kimdi?*
*Bir vaxtlar əlləri üstündə əsən*
*Övladın yaddan da yad bilir indi...*

*Soruşsan adını, doğulan yeri,*
*Ən uzaq ulduzda ev-ocağı var.*
*İlahi, bu adam - səyyah mələyin*
*Gəlib yer üzündə qərib yaşayar.*

*Unudub bir ömür qazandıqların,*
*Uşaqlıq, gənclik də sanki yalanmış.*
*İçində Tanrıdan başqa hər şeyi,*
*Zaman külləkləri alıb aparmış.*

*Sökülən, dağılan yaddaş dəftərin,*
*Təzədən yazmağa gücü yetməyir.*
*Yad sanır dərdindən ölən adamı,*
*Güzgüdən özünü tanıya bilmir...*

Bəli, mən əvvəldə vurğuladığım kimi, bu bir parça şeirdə işlədilən sözlərin ayrı-ayrılıqda hər biri bəlkə də sizə böyük mənalar ifadə etməyəcək. Amma onların bir qəlibdə ardıcıl düzümü artıq təkcə poeziya nümunəsi kimi yox, həm də fikrin, düşüncənin sərgisi kimi səni dayandırır, özünə çəkir, necə deyərlər, durub düşünməyə məcbur edir! Bu isə sözün gücüdü, sözün diqqətidi.

Ondan çəkinmək, ondan qorxmaq lazım deyil, ondan yararlanmaq, yeni sözə doğru getmək lazımdır. Elə yeri gəlmişkən, 2020-ci ilin 27 sentyabrında Ali Baş Komandanın verdiyi HÜCUM! - sözü. Onun ardınca ŞUŞA, BİZ GƏLDİK - sözləri mənə görə təkcə dilimizin yox, həm də özəl həyatımın ən gözəl, mübarək sözləridi. Və bu sözlərin deyilişi, onu eşidib qavramaq bacarığı şəxsən mənim iç dünyamı elə bir hala gətirdi ki, elə bir duruma saldı ki, mən özümü həmin an xoşbəxtlərin xoşbəxti olmaqla yanaşı, həm də Allah qarşısında hiss elədim, Cənnətdə gördüm. 30 il yolunu gözlədiyim sözü eşitmək, duymaq, yaşamaq nədirsə, necə anlaşılırsa, necə qəbul edilirsə, bax, bu yerdə məni də görün, məni də o sıraya yazın. Çünki:

***Eşit, ay elim, ərənim,***
***Qalam, bürcüm, səngərim,***
***Gözü yol çəkənlərim,***
***Müjdə, Şuşam, biz gəlirik!***

***Yenəmi o dağa qar yağır?***
***Bilirmi İsa bulağı?***
***Yox olsun göz yaşı, ağı,***
***Müjdə, Şuşam, biz gəlirik!***

***Ay dağlar, ay meşələr,***
***Ay intizar bənövşələr,***
***Ruhu yaşayan kişilər,***
***Müjdə, Şuşam, biz gəlirik!***

***Düşmən haqdan cəza bulur,***
***Yetməyə yollar durulur,***
***Turan birliyi qurulur,***
***Müjdə, Şuşam, biz gəlirik!***

***Bu gün axşama yetərik,***
***Zəfər bayrağın dikərik.***
***Yurda qəhrəman dönərik,***
***Müjdə, Şuşam, biz gəlirik!***

Gerçəkdən danışmaq, gerçəyi yazmaq o qədər də asan deyil. Çünki gerçəklik müəyyən mənada həm də bir mücərrədlikdir. Bunun da əsas səbəbi hər kəsin öz gerçəyi olmasıdır. Yəni baxış bucaqları fərqli olduğundan insanların həyata münasibəti, gerçəklik predmeti dəyişə bilir. Lakin Şuşaya gəlmək, Şuşanı görmək, bu artıq birmənalı gerçəklikdir. Burda baxış bucaqları da eyniləşir, münasibətlər də üst-üstə düşür. Bax, onda o işıq daşıyıcısı olan, Tanrı zərrəsi olan SÖZ də bütün dillərdə eyni mənanı ifadə edir. Necə deyərlər, bu da olur sözün xoşbəxtliyi.

Həmin o xoşbəxt sözlərin sırasında iç dünyanla, içindəki ilə Allahın etdiyi söhbətlərdə işlətdiyin sözlərin də özəl payı var. Bu özəlliyin də canı, qanı onun mübhəm olmasıdır. Yəni səndən və Allahdan başqa kimsənin bilməməsidi, duymamasıdı. O sözlər ürəyin ruhla, ruhun ürəklə, sonda ikisinin Allahla olan təmasıdır, dialoqudur, dərdləşməsidir. Hər nədirsə, o qədər insanın içinin bütünlüyünü bir araya gətirən və ifadə etməkdə çətinlik gətirdiyim bir varlıqdır. Səsi, ruhu olan varlıq. Onu isə yalnız Allah görür. Onun olduğunu isə yalnız ürək və ruh bilir, hiss edir. O vaxta qədər ki, o dilə yol tapır, o qələmə süzülür və onda həmin o iç dünyandakı sözün ikinci ömrü başlayır. Bu ömrün də yolu qarşılanmadan, doğurduğu əks-sədadan, bir növü, ətrafa necə təsir edəcəyindən asılı olur. Bax belə məqamda, hətta o iç dünyanın sualları da həm tikanlı, həm də birmənalı olur. O suallar adamı elə silkələyir ki, onun caynağından qurtulmaq mümkün olmur. Sən də, mən də, bütövlükdə hamımız da bu sual basqısının mahiyyətini də, mənzərəsini də yaşamışıq, müşahidə etmişik və birmənalı olaraq bilirik ki, o basqıdan adamı yalnız söz çıxara bilər - dəqiq və yerində işlədilmiş söz! Hətta o suallardan biri belə ola bilər ki:

***Kim üçün darıxar könlüm?***
***Niyə yol çəkər gözlərim?***
***Hardasa mənsiz ağlayır***
***Yazılmayan son sözlərim.***

***Bir Allah, bir söz vəfalı,***
***Güvənməyə kim qalıb ki?***
***Uzaqda bir qurd ulayır,***
***Səsi qürbət, həsrət zəngi.***

***Ən rəhimli bildiyim kəs,***
***Demə, ən zalım adammış,***
***Bizi günaha çəkməyə***
***Şeytan Haqdan zaman almış.***

Və yaxud:

***Gözüm yox sovqatda, payda,***
***Bir misra doğmalıq göndər.***
***Ruhumda sazaq fəslidir,***
***Gəlişin günəş gətirər.***

***Kaş, "kaş"lara yer qoymayaq,***
***"Yox"ları "var" gündən görək.***
***Ömrümüz haqq tapmacası,***
***Cavabı göydən düşəcək.***

***Tərəddüdlər, müəmmalar***
***Gözlərə yol çəkir indi.***
***Əvvəl bir zəngin ömrümə***
***Qəfil gələn vəhy kimiydi.***

***Sözdən, baxışdan üşüyən,***
***Qəlbim ümiddən yuxadı.***
***Yanında qürbət dostuyam,***
***Burda soyuqdu, qar yağır.***

Müxtəlif parçalarını təqdim etdiyim bu şeirin təkcə yaratdığı ovqat yox, həm də şəklini çəkdiyim mənzərə sözün gücünü, qüdrətini göstərən, həm də düşünməyə məcbur edən ilahi sözdü. O söz demək istədiyimizin az qala yarısından çoxunu özünün alt qatında saxlayır və dinləyəni, oxuyanı, göreni məcbur edir ki, o alt qata ensin, onun mahiyyətini canına hopdursun, həm də düşünsün. Hardan hara gəldiyini, hardan hara gedəcəyini müəyyənləşdirə bilsin. Bu müəllifin dediyi kimi vəhydi. Mənim düşündüyüm kimi ifadə etsəm Allah vergisidi. Ona görə də bu vəhyin özündə özünü görmək, özünə hakim olmaq və dürüst qərar qəbul etmək artıq bir insan olaraq sənin qəbul edəcəyin qərardan asılı olur. Belə götürəndə o qərarın özü də elə sözdü - yəni kağıza yazılanda, dildə səslənəndə söz formasında zühur edir, ortaya çıxır.

Bəli, yaşanan ömrün xoşbəxtliyi onda özünü büruzə verir ki, ömrün sahibi özünü görə bilir və tanıdığı, gördüyü özünün həyatda kimliyini də, yerini də, mahiyyətini də qiymətləndirməyi bacarır. Bax, bu bütün proseslər yaşanmış, yaşanan və yaşanacaq sözün düzümüdü. Mən onu bu cür qəbul edirəm və bu cür də yaddaşımdakı sözlərə dəyər verirəm. Həmin sözlər mənim üçün hər yerdə işlədə bildiyim "Azadlıq", "Qarabağ", "Şuşa", "Azərbaycan" və daha neçə-neçə müqəddəsliyi özündə ehtiva edə bilir və onları da dinləyəni, təkrar edəni, hətta özününküləşdirəni də kifayət qədər var. O ki, qaldı yaddaşa bunu da öz baxış bucağı altında hər kəs istədiyi formada dəyərləndirib yoza bilir. Mən isə yaddaşım da söz saxlancı olduğunu, bir az da sadə şəkildə ifadə etsəm, sözün yuvası, ocağı, evi olduğunu bilirəm və bu cür də həmin o söz ocağına dəyər verirəm. Amma mənim düşüncələrim, yozumlarım heç də o demək deyil ki, bütün bunlar ilahi sözə verilən və yaxud da onun bütünlüyünü təsdiqləyən möhürdü. Xeyr, ömür yaddaşının söz payı hər kəs üçün özəldi, hər kəs üçün də görünən bir yoldu. O yol mənə görə haqq doğru gedir. Yolunuz açıq, sözünüz yaşayan və yaşadan söz olsun!

***P.S.** Şeirlərin müəllifi çox hörmətli Sona Vəliyevadır.*